

■ Rəsul Yunan

Yaxşı bir şeydir ümid,
cibindəki son qəpik kimi,
son bilet kimi,
sonuncu güllə..,
sonuncu gəmi kimi.
Sonuncu qəpik qoymaz ki, sınsın qürurun,
izin verməz ümidsiz qayıdasan
avtovağzaldan sonuncu biletin.
Sonuncu güllə qoymaz əsir düşsün əsgər.
Ümidli olan kəs
yoxsul deyil,
həmişə nə isə bir şeyi var.
Sonuncu gəmidən deməyi unutdum.
Sonuncu gəmi əgər gəlməsə də
qoymaz səfər və dənizin adı yaddaşından çıxa...

* * *

Sevirəm sonsuz caddələri,
geniş bağları sevirəm,
çağlayan çayları...
Bütün o filmləri sevirəm,
məhbuslar zindandan qaçamağa nail olan filmləri...
Azadlığın qayğısındayam
Günəşi içməyin marağında.
Torpaq öpməyin,
məndə bir məhkum var? - əbədi məhbus,
qocalmış, əzgin...
Əlində bir lupa
qaçış üçün planı təkrarlayır...

* * *

Minanın üstünə basmışam ayağımı,
qımıldasam ölərəm.
Durduğum yerdə qalmalıyam
dünyanın sonunadək...

Müharibədə olan əsgərin durumundayam dümdüz,
sənin yanında olarkən
gözəlliyinin yanında...

* * *

Hüdürdən gülmürəm daha,
hündürdən danışmıram.
Daha dinləmirəm
küləyin səsini,
dənizi
quşu...
Asta gəlirəm... yavaş gedirəm,
yaşayıram səssiz-səmirsiz,
sən məndə yuxuya getmosən.

* * *



Söz ver ki, gələcəksən,
amma gəlmə...
Hər şey pozular gəlsən...
Daha zövqlə izləyə bilmərəm
dənizi... yolu...
Mən öyrənmişəm bu intizara,
Limanda, dayanacaqda addımlamağa...

Əgər gəlsən,
daha kimin yolunu gözləyim ki, mən?

* * *

Kimsəyə borcum yox...
Barmaqlıqların arxasından keçən
bu Aydan başqa ki,
burdan keçməyə bilərdi.
...və başqa bir yerdə,
məsələn bir xəyala aparan dənizin ortasında
milyonçu bir tacirin pəncərəsi şüşəsinə yapışa
bilərdi.
Kimsəyə borcum yox...
Bu Aydan başqa ki,
səni xatırladır mənə.

* * *

Sən olmasaydın,
sən olmasaydın yoxuydu eşq,
eləcə də yaşamağa təmənna.
Sən olmasaydın
palçıqdan bir külqabıydı yer üzü,
hövsələsizlikləri söndürməyə bir yer.
Sən olmasaydın,
işsiz qalardım,
səni sevməkdən başqa
bir peşəm yoxdu bu dünyada.

* * *

Dəhşətli yağış yağır,
günəşli bir günortada.
Heç bir hadisə baş tutmayıb
yalnız sən getmisən...
amma mən and içə bilərəm ki bu yağış
adi bir yağış deyil.
Böyük ehtimalla uzaqlarda
bir dənizi güdaza veriblər.

* * *

Qapını döyməz ölüm,
açarla açar qapını.
Qapını döysə ölüm,
ta o ölüm, ölüm deyil ki...
Bəlkə, vergi məmurudur,
ya poçt məmuru, ya da, qonaq...
Siması dumanlıdır
və boğazında...
öskürür ölülər.

* * *

Adamlar keçir
Adamlar gözlərindən keçirlər
və hər birisinin kölgəsi qəlbimin dərinliyinə düşür.
Heç ola bilərmi ki,
bu adamlardan biri sən olmayasan?
Bəlkə də, tanımıram elə səni,
yoxsa bu parlayan gözlərin biziləri
Ola bilsin sənin gözlərindir...

* * *

Günlər dolub-boşalır
çay fincanları kimi
günortalar kafelərdə,
amma nəsə dəyişmir...
Məsələn, bu ki,
sən masanın o tayında oturmuş olasan...
Hərdən, fincan yerə düşür
bizi xəyaldan oyadır...

* * *

Qaranlıq otaqda
siqaretimi yandırarkən
kibrit alovuna baxıram
və bu şeir yaranır zehnimdə.



Qaranlığa od vurmaq olmaz,
qaranlığı yandırmaq gərək.

* * *

Bu şəhərin üstünə yağan yağış
bir gecə İstanbula da yağacaq,
eləcə də, Londona,
Bakıya...
Hər harda olsan bir gecə
birinci görüşün xatirəsinə
sənin də ürəyin qırılacaq,
elə mənim ürəyim kimi.
O yağışın altında ki,
xatirə buludundan yağır...

* * *

Telefon zəng edəndə,
yəni unudulmamısan
nömrəni səhv yığsalar belə...
Əziz dostum,
bu dünyada elə insanlar var ki,
nömrələri belə səhv yığılmır...

* * *

Suvaq divara
adını közlə yazdım.
Sonralar
bir gəmi çəkdim,
balıqlarını "yaratdım",
amma gəmi səni götürüb apardı,
tüpürdüm mavilərin üstünə...
Dənizləri sildim,
pozdum hər şeyi...

* * *

Kaş xatirələrdən ayrılmağa imkan olardı...
O zaman
daha səni heç şey incidə bilməzdi.
Məsələn, Ay
onu sənə xatırlatmazdı.
Qızıl gül bir eşq hədiyyəsi deyil,
sahil də addımlayası yer deyil.
Ağlamağa da yox...
Kaş xatirələrdən ayrılmağa imkan olardı.

* * *

Ta qarğanı
qartala bənzədə bilmirəm,
heyvanı əfsanəvi bir çırağa.
Çamadanını bağlamısan
və şairlik daha mənim işim deyil.
Arxanca
köhnə bir bina misalı yıxılıram içimə,
pozuram küçənin gözəlliyini...

* * *

Bir taksi istəyirəm
sərnişin daşımağa,
bir taksi istəyirəm
bir sərnişinlə yaxından danışmağa,
bir taksi istəyirəm...
Qoy düzünü deyim:
səni axtarıram
o sərnişinlərin arasında...

**Tərcümə:**
**Ümid Nəccari**